BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# POLİTOLOGİYA, PSİXOLOGİYA

## DİNDİRMƏNİN BƏZI PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**B.H.ƏLİYEV, Y.Ə.VƏLİYEVA**
***Bakı Dövlət Universiteti***

*Təqdim edilən məqalədə dindirmənin bəzi psixoloji məsələlərinə toxunulmuşdur. Məqalədə dindirmə prosesi həm hüquqi, həm də psixoloji baxımdan tədqiq edilir. Eyni zamanda insanın psixi həyatı, onun duyğu və qavrayışı, təxəyyül və təfəккürü, hafizəsi, hiss və iradəsi, eləcə də maraq və meylləri, temperament və xaraкter haqqında biliкlərin dindirmə prosesində rolu geniş şərh edilmişdir. Dindirmə zamanı psixoloji təsir üsullarından istifadə yollarının öyrənilməsi məqalədə öz əкsini tapmışdır. Dindirmə prosesində кonкret cinayət əməllərini törədənlərin, cinayətin baş verməsi şəraiti və vasitələrini, iştiraкçıların cinayətin törənməsində aкtivliк səviyyəsini və ya təqsirliliк dərəcəsini müəyyənləşdirməк dindirmənin başlıca vəzifəsi кimi göstərilmişdir.*

İbtidai istintaqda dindirmə ən vacib istintaq hərəkətlərindən biridir. Müstəntiq dindirmə zamanı təhqiq edilən hadisənin faktiki tərəfi haqqında məlumat əldə etməli və ona hüquqi qiymət verməlidir. İbtidai istintaqda cinayət hadisəsinin baş verdiyi şərait və onun motivi hərtərəfli araşdırılmalıdır. Bu zərurət AR CPM-nin 138-ci və 221-ci maddələrinin tələblərindən irəli gəlir. Belə ki, ibtidai araşdırma zamanı, bir tərəfdən, müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən edərək onların aradan qaldırılması üçün tədbirlər görür (CPM-nin 221.1-ci maddəsi), digər tərəfdən, təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi ittihamçının üzərinə düşür (CPM-nin 138.2-ci maddəsi). Sübutetmə institutu istər cinayət, istərsə də mülki işlərdə xüsusi yer tutur. Ona görə ki, sübutetmə iş üçün hüquqi əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir. Sübutun bir növü kimi dindirmə və üzləşdirmə zamanı əldə edilən ifadələrin əhəmiyyəti böyükdür. Bu baxımdan dindirmənin hüquqi və psixoloji əsaslarının öyrənilməsi zəruridir.

Hüquq praktikasında dindirmə geniş yayılmış və taкtiкi cəhətdən ən mürəккəb istintaq əməliyyatıdır. Hüquq ədəbiyyatında qeyd edilir ki, «dindirmə müstəqil istintaq hərəкəti olub, dindi-

rilən şəxsdən cinayət *işi üzrə* həqiqətin üzə çıxarılması üçün *əhəmiyyətli olan hallara dair məlumatların cinayət-prosessual qanunla müəyyən edilən qaydada alınması deməкdir*» (6, s.116). Buradan göründüyü kimi dindirmədən əvvəl, birincisi, "iş üzrə əhəmiyyətli olan hallar", ikincisi, ona dair məlumatların daşıyıcısı və bu məlumatların daşıyıcısının hərtərəfli məlumat verə bilmək qabiliyyətinin müəyyən edilməsidir. Çünki «dindirmənin mahiyyəti iş üçün əhəmiyyəti olan hallara dair məhz gerçəк məlumatların əldə edilməsindən ibarətdir» (6, s.116). AR CPM-nin 145-ci maddəsinə uyğun olaraq toplanmış sübutlar müstəntiq tərəfindən daxili inamına görə qiymətləndirilməlidir. Daxili inam psixoloji kateqoriyadır və subyektin fərdi-psixoloji xüsusiyyətləri, idrak prosesləri ilə şərtlənir. Eynilə ifadə verənin ifadəsi və ifadə alanın, yəni dindirənin fərdi-psixoloji xüsusiyyətləri bu proseslərə ciddi təsir göstərir. Dindirmə sosial-psixoloji baxımdan peşəkar ünsiyyətinin bir növü kimi çox dinamik psixoloji səciyyəyə malikdir. Ünsiyyət isə, məlum olduğu kimi, insanların bir-birini qavraması, anlaması, informasiya mübadiləsi və qarşılıqlı təsir prosesidir. Ona görə də müstəntiq bu prosesə hərtərəfli hazırlaşmalı, dindirilənlə qarşılıqlı etimad yaratmalıdır. Bunun üçün həm dindirilənin fərdi-psixoloji xüsusiyyətləri, həm də onun prosessual vəziyyəti öyrənilib, nəzərə alınmalıdır. Təəssüflə qeyd etməliyik ki, əksər hallarda nə ibtidai, nə də məhkəmə istintaqında bu mühüm məsələlər nəzərə alınmır. Nəticədə isə sübutların məcmuyunun hərtərəfli, tam və obyektiv araşdırılması və qiymətləndirilməsi mümkün olmur.

İnsanın psixi həyatı, onun duyğu və qavrayışı, təxəyyül və təfəккürü, hafizəsi, hiss və iradəsi, eləcə də maraq və meylləri, qabiliyyətləri, temperament və xaraкteri haqqında biliklər dindirmənin təşkili və keçirilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Dindirilənin şəxsiyyəti öyrənilərkən müstəntiq onun sosial statusu, sosial mövqeyi və rolu, müsbət və mənfi sosial keyfiyyətləri, xarakter və temperamentinin tipləri haqqında mümkün qədər müfəssəl məlumat toplamalıdır. Bütün bunlar isə dindirməyə hazırlaşarkən onun planlaşdırılmasında nəzərə alınmalıdır. Belə ki, xolerik və melanxolik temperament tipi dominantlıq edən şəxslərdə psixi proseslərin axarı qeyri-sabit olduğu üçün onlar daha impulsiv, tez özündən çıxan, münaqişəyə meylli olurlar. Eyni zamanda onların fikri daha kateqorik olur, fikirlərini ifadə edərkən tələskənliyə yol verirlər. Əgər xolerik və sanqviniklə ünsiyyətə girmək, dialoq qurmaq çox qısa bir vaxt tələb edirsə, fleqmatiqlərdə bu, əksinə daha çox səbr, təmkin və uzun vaxt tələb edir. Çünki fleqmatiklərdə psixi fəaliyyətin inertliyi yüksəkdir. Bu xüsusiyyətinə görə fleqmatiklərə ünvanlanmış suallara cavab verməyə onları tələsdirmək olmaz. "Qaradinməzliyi" ilə seçilən bu tip insanlarla tələsmədən, ardıcıl surətdə dialoq qurmaq və ya fikirlərini tam ifadə etmək üçün sözlərini kəsməmək lazımdır. Müstəntiq həmçinin bu fərdi-psixoloji xüsusiyyətlərin ifadələrin müxtəlif səviyyələrdə təşəkkülünə təsirini də nəzərə almalıdır. Bu baxımdan dindirmənin psixoloji və sosial-psixoloji cəhətlərinin araşdırılması böyük maraq kəsb

edir. Burada təkcə müstəntiqlə dindirilən şəxs arasındakı münasibətin xarakteri deyil, həm də ümumən dindirmə prosesində iştirak edən insanlar arasındakı qarşılıqlı münasibət və qarşılıqlı təsirin xüsusiyyətləri ön plana keçir. Başqa sözlə, məsələnin sosial-psixoloji aspektləri özünü daha qabarıq surətdə büruzə verir.

Dindirmə prosesində konkret cinayət əməllərini törədənlərin, cinayətin baş verməsi şəraiti və vasitələrini, iştirakçıların cinayətin törənməsində iştirakçılıq və ya təqsirlilik dərəcəsini müəyyənləşdirmək dindirmənin başlıca vəzifəsidir. Məlumdur ki, iki və ya daha çox şəxsin birgə həyata keçirdiyi cinayət əməli qrup halında törədilmiş cinayətlərə aiddir. Ona görə də ilk növbədə cinayətkar qrupun yaranmasının sosial-psixoloji əsasları araşdırılmalı, qrup üzvlərinin həmin qrupdakı, rolu, yeri, mövqeyi və statusu müəyyənləşdirilməlidir. Bu halların müəyyən edilməsi, bir tərəfdən, müstəntiqə hər bir şəxsin cinayət əməlinin təşkili və həyata keçirilməsində iştirakçılıq dərəcəsini təyin etməyə imkan verir, digər tərəfdən, qrupun “zəif həlqəsi” olan şəxsi, qrup üzvləri arasındakı münasıbətlər, onların sərvət dəyərləri, əxlaqi keyfiyyətləri haqqında daha dolğun məlumat əldə etməyə imkan verir. Nəticədə müstəntiq qrup üzvlərinə adekvat psixoloji təsir vasitəsini asanlıqla seçə bilir.

Ən vacib məsələlərdən biri də dindirilən şəxsin psixi statususunun əvvəlcədən müəyyənləşdirilməsidir. CPM-nin 140.0.2., 140.0.3. və 229-cu maddələrinə əsasən psixi xəstəliyi şübhə doğuran, həmçinin lal, kor, kar və ya digər ağır xəstəlikdən əzab çəkən şahidin dindirilməsi özünün səciyyəvi xüsusiyyətlərinə malikdir. Lakin elə buradaca qeyd etməliyik ki, qanunvericilikdə psixi və fiziki qüsuru olan şəxslərin işin hansı halları ilə bağlı ifadə verə bilmələri və ya belə ifadələri verməmələri dəqiq müəyyənləşdirilməyib. Karın nəyisə eşitməsi, korun nəyisə görməsi və ya çolağın ağlabatmaz hərəkətliyi şahid ifadəsinin mötəbərliyini əvvəlcədən şübhə altına alır. Bəzi tədqiqatlarda qeyd edildiyi kimi, «təqsirləndirilən şəxsin fiziki və psixi inkişafı haqqında olan məlumat həmin şəxsin baş verən cinayətdə normal, yaxud anormal vəziyyətdə iştirak etməsi faktını təyin etməyə imkan verir. Psixi xəstəliyin olması məhkəmənin qərar qəbulunda müəyyən rol oynayır. Bundan əlavə, təqsirləndirilən şəxsin sağlamlıq vəziyyəti haqqında məlumat təhqiqatçı müstəntiq üçün də zəruridir, çünki belə bir məlumat işlə bağlı müdafiəçinin işə cəlb edilib-edilməməsi məsələsini həll etmək üçün də vacibdir. Çünki, müəyyən psixi xəstəliyə malik şəxslər işlə bağlı müəyyən ifadələr verməyə qabil olmurlar» (7, s.9).

Göründüyü kimi, belə bir dəqiqləşdirmə, yalnız hüquqi cəhətdən deyil, eyni zamanda psixoloji cəhətdən də əhəmiyyətlidir. Elə bu cəhəti nəzərə alaraq qeyd edilir ki, «təqsirləndirilən şəxsin həyat şəraiti haqqında məlumat onun cinayət əməlinin motivlərini müəyyənləşdirmək üçün zəruridir. Yəni hansı şəraitdə onun cinayətə əl atmağa vadar olunması aydınlaşmış olar. Çünki cinayətkar davranış motivləri müxtəlif olur. Belə motiv kimi adamın əlverişsiz maddi vəziyyəti, maddi asılılığı, yaxud kənardan təhdid ola

bilər. Bu cəhətdən xüsusən də yetkinlik yaşına çatmayanların və gənclərin həyat şəraitinə diqqət yetirilməlidir» (7, s.9-10).

Dindirmənin məqsədi dindirilən şəxsdən onun hadisələri qavrama və yadda saxlamasından asılı olaraq cinayət işi üçün əhəmiyyətli ola biləcək geniş məlumat əldə etməkdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, dindirilən şəxsin verdiyi məlumat onun fərdi-psixoloji və psixofizioloji xüsusiyyətləri ilə şərtlənir. Bu səbəbdən eyni bir hadisə və ya predmet haqqında ifadə verən şəxs həmin hadisələri müxtəlif, fərqli cəhətlərdən təsvir edə bilər. İfadə verən bəzən maraqlarının xarakterindən, görmə və ya eşitmənin xüsusiyyətlərindən asılı olaraq ya natamam, ya da təhrif edilmiş məlumat verə bilər. Dindirilənin belə vicdanlı yanılmasını yalan ifadədən fərqləndirmək üçün dindirən həmin şəxsin fərdi-psixoloji xüsusiyyətlərinə yaxından bələd olmalı, ifadənin təşəkkülü mexanizmini nəzərə almaqla ona hüquqi qiymət verməlidir.

Həmin mürəkkəb psixoloji prosesə yaxından bələd olmaq, onun təşəkkülünə təsir edən amilləri, həmçinin təzahür xüsusiyyətlərini müəyyənləşdirmək zəruridir. Bu məsələnin həllində dindirmə prosesində psixoloji təsir üsul və vasitələrinin düzgün seçilməsi və tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Dindirmə zamanı müəyyən psixoloji təsir üsullarından yalnız müəyyən şərtlər və şərait daxilində istifadə etmək olar. Belə şərtlərə isə qanunilik, idraki səmərəlilik (yəni istifadə edilən üsulun köməyi ilə həqiqətin bərqərar olması), təsirin seçiciliyi, onun peşə etikasına və əxlaqına uyğun olmasıdır. Qeyd edilən cəhətlər dindirmə prosesində psixoloji təsir üsullarının müəyyənləşdirilməsi prinsipləri kimi bu gün də öz aktuallığını saxlamaqdadır. Təəssüflə qeyd etməliyik ki, bu prinsiplər dindirməni həyata keçirən məhkəmə-istintaq orqanları işçilərinin fəaliyyətində heç də həmişə lazımınca nəzərə alınmır. Burada dindirmə prosesində psixoloji təsir vasitələrinin seçilib tətbiq edilməsinə təsir göstərən bəzi mühüm amillərin rolunu qeyd etmək istərdik. Bununla bağlı maraqlı cəhətlərdən biri dindirmə prosesində istifadə edilən təsir vasitələrinin imkanlarının və səmərəlilik dərəcəsinin necə qiymətləndirilməsidir. İstər mövcud ədəbiyyatın, istərsə də konkret cinayət işlərinin materiallarının təhlili göstərir ki, dindirmə prosesində psixoloji təsir vasitələrilə yanaşı, cinayət-prosessual qanunvericiliyin tələbləri pozulmaqla qeyri-qanuni təsir üsul və vasitələrindən də istifadə edilir. Qanunsuz təsir vasitələrinin tətbiqi ilə əldə edilmiş ifadələr bəzən məhkəmə istintaqı zamanı öz lazımi hüquqi qiymətini alaraq sübut kimi hüquqi əhəmiyyətini itirir. Lakin əksər hallarda məhkəmə baxışı zamanı belə hallara ya göz yumulur, ya da lazımi hüquqi qiymət verilmir. Onu da qeyd etmək lazımdır ki, insan psixologiyasına yaxından bələdlik və dindirmə prosesində ondan yerində və məharətlə istifadə etmək həqiqətin üzə çıxarılmasına yaxından kömək edir və işin hərtərəfli və obyektiv araşdırılmasına əlverişli şərait yaradır. Bu cəhət yalnız müstəntiqin peşə hazırlığı səviyyəsi ilə şərtlənmir, həm də ondan dərin psixoloji fəhm tələb edir. Bəzi hallarda belə bir fəhmin olması ciddi psixoloji tapıntı, yüksək psixoloji məharət

səviyyəsinə yüksələ bilir.

Dindirmənin düzgün təşkili və keçirilməsi üçün tədqiqatçı və müstəntiqdən yaxşı nitq qabiliyyətinə, qeyri verbal kommunikasiya vasitələrinə, psixoloji müdafiə məharətinə malik olması tələb olunur. Nəticədə dindirənlə dindirilənlər arasında lazımi psixoloji əlaqənin yaranması prosesi xeyli dərəcədə asanlaşmış olar.

Dindirmə aparılmamışdan öncə təbii ki, dindirilən şəxs, onun törədilmiş cinayətə münasibəti və s. haqqında məlumat toplanır. Dindirmə aparılarkən nəzərə almaq lazımdır ki, bəzi şahid qismində ifadə verən şəxslər istintaqa hələ məlum olmayan faktlara görə sonradan şübhəli şəxs qismində də dindirilə bilərlər. Bunun üçün müstəntiq həmin subyekt haqqında məlumat toplayarkən onun dindirmədə hansı mövqe tutmasını proqnozlaşdırır. Hər bir dindirmə bir neçə dəqiqəlik (qısa müddətli) söhbətlə başlayır. Bu zaman dindirilən şəxsə onun hüquq və vəzifələri izah olunur və müstəntiqlə dindirilən şəxs arasında ilkin ünsiyyət yaranır. Müstəntiq dindirilən şəxslə ünsiyyət formasını dəqiq seçməli və onun tələblərinə uyğun hərəkət etməlidir. Bu vaxt müstəntiq emosional çalarlardan, jestlərdən yerində istifadə etməyi bacarmalıdır. Müstəntiq səmimi söhbət yaratmaq üçün dindirmə prosesindən əvvəl dindirilən şəxsə bir neçə işə aid olmayan suallar verə bilər. Yaddan çıxartmaq olmaz ki, dindirilən şəxs də, dindirməyə dindirmənin keçirildiyi yerə və şəraitə uyğun olaraq davranışını tənzimləyir.

Müstəntiqlə dindirilən şəxs arasında düzgün informasiya mübadiləsinə ciddi təsir göstərən bir çox daxili və xarici amillər var. V.L.Vasilyev müstəntiqlə dindirilən şəxs və ya şəxslər arasındakı münasibət haqqında danışarkən qeyd edir «Bir çoxlarının mülahizəsinə görə, dindirmə müstəntiqlə dindirilən arasında gedən mübarizədir. Əslində isə bu belə deyildir. Yəni ən azı bu mülahizə həqiqətə uyğun deyildir və ya yanlışdır. Məsələyə belə bir baxış köhnə təsəvvürlərin, əvvəllər yaranmış yönəlişin inikasıdır. Bununla bərabər, həmin müəlliflər dindirməyə müstəntiqin dindirilən şəxsə təsir vasitəsi kimi baxılmasını da qəbul etmirlər. Onların fikrincə, dindirmə prosesi mahiyyət etibarı ilə qarşılıqlı informasiya təsiri proseslərindən biri olub, şəxsiyyətlərarası ünsiyyətdir və iki başlıca tərəfin, yəni dindirənlə dindirilənin informasiya mübadiləsidir» (9, s.482).

Dindirmə ünsiyyətin spesifik cəhətlərə malik olan xüsusi forması kimi şəxsiyyətlərarası münasibətlərə də psixoloji məzmun verir. Həmin prosesdə münasibətlər ziddiyyətli və kəskin xarakter ala bilər və özünün psixoloji mahiyyətinə görə yaxın adamlar, tərəfdaşlar, tanışlar və s. arasındakı münasibətlərdən fərqlənərək müxtəlif mövqedə olan insanlar arasındakı gözlənilməz, ekstremal şəraitdə baş verir. Şəxsiyyətlərarası münasibətlərdə yalnız mövqe fərqləri deyil, dərin ziddiyyətlər, bəzən də ixtilaflar özünü göstərir. Şəxsiyyətlərarası münasibətlərdəki kəskinlik və fərqlər yalnız dindirmənin hüquqi, etik və əxlaqi tərəfləri ilə şərtlənmir, həm də tərəflərin fərdi-psixoloji xüsusiyyətləri ilə əlaqədardır. Fərdi-psixoloji xüsusiyyətlərin düzgün nəzərə alınması dindirmə əməliyya-

tının səmərəli olmasına və adekvatlıq səviyyəsinə müsbət təsir göstərir. İşdə bunun nəzərə alınmaması isə ciddi mənfi nəticələr verə bilər. Ona görə də dindirmə taktikasında dindirilən şəxslərin psixoloji xüsusiyyətlərini öyrənmək və ondan düzgün istifadə etmək vacibdir.

Dindirmə prosesində iştirak edən şəxslərin fərdi-psixoloji xüsusiyyətləri rəngarəngdir. Həmin fərdi-psixoloji xüsusiyyətlər şəxsiyyət tipləri, xarakter əlamətləri, qabiliyyətlər, idrak xüsusiyyətləri, temperament tipləri və s. şərtlənə bilər. Bütün bu xüsusiyyətlərin hər biri dindirmə prosesində özünəməxsus şəkildə təzahür edir və fərqli nəticələrə gətirib çıxara bilir. Fərdi-psixoloji xüsusiyyətlərin öyrənilməsi birtərəfli proses olmayıb qarşılıqlı səciyyə daşıyır. Dindirmə prosesində istintaq orqanı işçiləri dindirilən şəxslərin fərdi-psixoloji xüsusiyyətlərini müəyyən etməyi istintaq taktikası üsullarından biri kimi tətbiq edərək iş üçün lazımi informasiyalar əldə edirlər. Dindirilən şəxslər də istintaq işçilərinin fərdi-psixoloji xüsusiyyətlərini öyrənməyə cəhd edir və ondan psixoloji təsir vasitəsi kimi istifadə etməyə can atırlar. Hətta bəzən ayrı-ayrı dindirilən şəxslərin bu sahədəki psixoloji məharəti bəzi təhqiqatçı və ya müstəntiqin məharətindən daha yüksək ola bilir.

Əgər dindirilən şəxs haqqında müstəntiqdə belə ətraflı və dəqiq məlumatlar olarsa, bu ona psixoloji yanaşma və psixoloji təsir üsullarını, eləcə də dindirmə taktikasını müvəffəqiyyətlə həyata keçirməyə imkan verər. Bu mənada mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, müstəntiqin dindirməyə psixoloji cəhətdən hazır olması onun müvəffəqiyyətlə həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Dindirmə prosesində iştirak edən şəxslərin fərdi-psixoloji xüsusiyyətlərinin düzgün nəzərə alınması məsələsi nəinki kriminalistikanın, eyni zamanda hüquq psixologiyasının bir sıra məsələlərinin müvəffəqiyyətli həlli üçün çox vacibdir. Burada yalnız məsələnin bir tərəfi, yəni dindirilən şəxslərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması zəruri hesab edilmir. Həm də dindirən şəxslərin özlərinin də fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması vacib məsələ sayılır. Dindirmə əməliyyatı qarşılıqlı ünsiyyət və ikitərəfli psixoloji təsir prosesidir. Fərdi-psixoloji xüsusiyyətlərin xarakteri bir halda dindirmənin sakit psixoloji şəraitdə keçməsini şərtləndirsə də, digər halda psixoloji qarşıdurmanı, psixoloji ziddiyyəti daha da kəskinləşdirə bilər. Bu, yalnız dindirən şəxsin dindirmə taktikasına və qaydalarına nə dərəcədə düzgün əməl etməsindən asılı deyildir, həm də dindirən şəxsin özünün fərdi-psixoloji xüsusiyyətlərindən, eyni zamanda hansı psixoloji tiplə qarşılaşmasından asılıdır. Bir sıra inkişaf etmiş ölkələrdə bəzən dindirmə prosesində mütəxəssis psixoloqun iştirakı vacib sayılır və dindirmədə iştirak edən tərəflərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasına xüsusi əhəmiyyət verilir.

Dindirmə prosesində insanların ifadə verməsi çox mürəkkəb psixi prosesdir. Bu prosesin mürəkkəbliyi hadisə zamanı insan hafizəsində əks olunmuş reallığın yadda saxlanması və dindirmədə

yada salınmasının baş verməsidir. Eyni zamanda bir neçə psixi prosesin nəticəsinin müəyyən məqamda təzahür etməsi, ortaya qoyulmasıdır. Hafizə proseslərinin içərisində yadda saxlama xüsusi yer tutur. Yadda saxlamanı ixtiyari və qeyri-ixtiyari olmaqla iki yerə bölürlər. Dindirmə prosesində demək olar ki, şahid ifadəsi əsasən qeyri-ixtiyari yadda saxlamaya söykənir. Bunun əsas səbəbi ondan ibarətdir ki, dindirilən şəxs dindirmə zamanı iş üçün əhəmiyyət kəsb edən faktlar barəsində məlumat verərkən şahidi olduğu hadisələrin təfərrüatını bəzən qeyri-ixtiyari olaraq yadda saxlayır. Bəzən isə insan ondan nə soruşulacağını qabaqcadan təxmin edir və o, soruşulacağı ehtimal olunan predmetlərin (küçənin, evin nömrəsini və s) yadda saxlamağa çalışır.

Ona görə də dindirən dindirilənin, törədilmiş hadisəni özünün görməsi və ya eşitməsini, başqalarından bu barədə eşitdiyini, həmçinin eşitdiklərinin mötəbərliyi kimi məsələləri aydınlaşdırmalıdır. Müstəntiq bir neçə şahidin ifadəsini çarpazlaşdırmalı, müqayisə etməli və dərin, hərtərəfli təhlildən sonra mötəbər, dürüst faktları üzə çıxartmalıdır. Fikrimizcə, belə məsələlərin ibtidai istintaqda nəzərə alınması iş üçün çox dəyərli məlumatların üzə çıxarılmasına şərait yaratmış olur.

Dindirmə zamanı şəraitlə bağlı kənar qıcıqlandırıcıların təsirinin aydınlaşdırılması məsələsinə diqqət yetirmək lazımdır. Kənar qıcıqlandıcıların təsiri idrak proseslərinin fəaliyyətində yanlışlıqların əmələ gəlməsinə ciddi surətdə təsir göstərir.

İnsanın idrak proseslərinin cərəyan etmə xüsusiyyətlərindən asılı olaraq dindirmə zamanı alınan ifadələrdəki faktlar təhrif edilmiş ola bilər. Bunlar başlıca olaraq iki mühüm amilin təsirindən, dərk edilən obyektlərin təsir xüsusiyyətlərindən, başqa sözlə, insana hansı şəraitdə və nə dərəcədə intensiv surətdə təsir etmələrindən, digər tərəfdən, dərk edən şəxslərin psixoloji xüsusiyyətlərindən asılıdır. Məsələnin ikinci tərəfi daha mürəkkəb və çoxcəhətlidir. Bildiyimiz kimi, idrak proseslərinin ümumi xüsusiyyətlərilə yanaşı, həm də hər bir şəxsdə təzahürlərinin fərdi xüsusiyyətləri var. İnsan bunu özünəməxsus şəkildə duyur, qavrayır, yadda saxlayır, düşünür, fikirləşir, cismə, hadisəyə özünəməxsus şəkildə münasibət bəsləyir, eləcə də öz davranış və rəftarını tənzim edir. Bütün bu cəhətlər, bir tərəfdən, onun fərdi-psixoloji xüsusiyyətlərilə şərtlənirsə, digər tərəfdən onun dünyagörüşündən, inam və əqidəsindən, hansı şəxsiyyət tipinə aid olmasından asılıdır.

Araşdırmalar göstərir ki, dindirmə zamanı yol verilən səhvlər bir çox hallarda prosessual amillərlə bağlı olur və bu istintaqın gedişi və nəticələri üçün ciddi əhəmiyyət kəsb edir. Hər bir şəxsin dindirilməsinin öz psixoloji xüsusiyyətləri var və onlara bələd olmadan, həmin xüsusiyyətləri nəzərə almadan dindirmədə ciddi yanlışlıqlara yol verilə bilər. Bu da, heç şübhəsiz, istintaq prosesinin gedişinə mənfi təsir edir.

Bir sıra hallarda təqsirləndirilən şəxs gözlənilməz təzyiqə məruz qaldıqda o donmuş vəziyyətə düşür, gözlənilməz mürəkkəb şəraitdən düzgün baş çıxarmaq iqtidarında olmur, dili dolaşır,

fiкrini düzgün ifadə edə bilmir, qəflətən baş qaldıran affeкt halı fiziкi və psixi coşğunluğa deyil, tam passivliк halətinə gətirib çıxarır. Belə bir psixoloji halətdə o nə dediyini, nə etdiyini tam aydınlığı ilə dərк edə bilmir, elə ona görə də onları düzgün yadda saxlamağa da qabil olmur. Psixoloji halət və ya psixoloji durum dindirmə əməliyyatı zamanı, xüsusən də təqsirləndirilən şəxsin gözlənilməz sərt və mahiyyət etibari ilə tamamilə həqiqətə uyğun olmayan ittihamlarla üzləşdiyi zamanda baş verə bilir. O, gözlənilməz iftira xaraкterli yalançı ittihamlarla qarşılaşarкən özü də bilmədən «donub qalır; dili tutulur», özünü müdafiə etməк üçün heç bir şey edə bilmir. Xüsusi olaraq qeyd etməliyiк кi, bu cür psixoloji durumun, halətin yaranması bir çox istintaq orqanı işçiləri tərəfindən əкs mənada, işin xeyrinə olan bir dəlil кimi anlaşılır.

Təəssüflə qeyd etməliyiк кi, bəzi hallarda təhqiqatçı-müstəntiq dindirilən şəxslərə qeyri-qanuni təzyiq üsullarından «məharətlə» istifadə etdiкləri halda, onlara düzgün psixoloji yanaşma, müsbət psixoloji təsir üsullarından lazımınca istifadə etmirlər. Bunun bir səbəbi də onların psixoloji səriştəsizliyi və elmi-psixoloji biliкləri öz peşə fəaliyyətlərində tətbiq edə bilməmələrilə əlaqədardır.

Dindirmə zamanı yaranmış şəraitdən, iştirakçıların prosessual statusundan və dindirilənlə dindirənin qarşılıqlı münasibətlərindən asılı olaraq dindirmənin iki tipini ayırd etmək olar: 1) münaqişəsiz dindirmə, 2) münaqişəli dindirmə. Adətən, zərərçəkmiş şəxslərin və şahidlərin dindirilməsi münaqişəli xarakter daşımır. Lakin şübhəli və təqsirləndirilən şəxslərin dindirilməsi dindirmənin bu və ya digər mərhələsində münaqişəli xarakter daşıyır. Bunu nəzərə alaraq dindirən dindirilənin şəxsiyyəti haqqında məlumat toplayarkən, dindirməni planlaşdırarkən dindirilən şəxsin tutacağı mövqeyi modelləşdirməyi bacarmalıdır.

Münaqişəsiz vəziyyətdə dindirmə başladıqda müstəntiq şahidə, zərərçəкmiş şəxsə faкtiкi iş barəsində bildiyi bütün halları olduğu кimi, özü tərəfindən danışmağa təкid edir və bundan sonra ona suallar verilir. Qanun dindirmənin psixoloji cəhətini nəzərə alıb və başa düşür кi, dindirməyə çağrılan şəxs istəməsədə müstəntiqin təsiri altına düşə bilər. Bu təsir dindirmənin şəraiti, dindirməyə çağrılan şəxsin psixofizioloji vəziyyəti (yorğunluq, əsəbiliк və s.) onun intelleкtual, yaş xüsusiyyətləri кimi xaraкteriк cəhətləri, müstəntiqə etibar, şahidin ifadəsinə təsir edə biləcəк faкtorlardır.

Qanunvericiliк ünsiyyətin psixoloji hüdudlarını müəyyənləşdirərəк dindirmə zamanı bəzi psixoloji qanunauyğunluqları da nəzərdə tutmuşdur. Hər şeydən əvvəl şəraitin özü dindirilənin psixoloji halıdır. Burada hər iкi tərəfin hərəкətləri, düşüncəsi, cavabları psixoloji vəziyyəti mühüm rol oynayır. Bəzən şahid suala qulaq asaraq nəinкi suala necə cavab verməsini, həm də ondan nə gözlədiкlərini də düşünür. Ona görə də səmimi qəlbdən müstəntiqə кöməк etməк istəyən şahid işin vəziyyəti ilə əlaqədar başa düşdüyü

kimi hər şeyi anlatmalıdır. İstintaqa kömək məqsədilə ifadə verən şahidin dindirilməsi müstəntiqdən böyük diqqət tələb edir. Burada müstəntiq tərəfindən şahidin bu və ya digər məlumatı hansı formada dərk etməsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Müstəntiq müəyyən etməlidir ki, şahid gördüyü, bildiyi məlumatları olduğu kimi danışır, yoxsa olduğu kimi deyil, özü anladığı, dərk etdiyi formada danışır. İfadə verərkən şahidin bu informasiyanın hansı növ yaddaş vasitəsilə yadında saxladığını da öyrənmək zəruridir. Sonra bu informasiyalardan istifadə etməklə müvafiq qaydada sualları formalaşdırmaq lazımdır ki, şahiddə bu və ya digər yaddaş növünü aktivləşdirsin. Müəyyən etmək lazımdır ki, şahid obrazlı, emosional və ya sözlü-məntiqi yaddaş növlərinin hansı birindən istifadə edib. Şahid qarşısında qoyulmuş suallar əlavəedici, dəqiqləşdirici, yadasalıcı və s. ola bilər. Verilmiş suallarda müvafiq informasiyalar qoyulur ki, şahiddə (yaddaşında) qarşılıqlı, uyğun təsəvvürlər yaransın. Yadasalıcı informasiyalar işin halları ilə birbaşa əlaqədar olmamalıdır. Çünki bu işin gedişatına yönəlmiş suala cavab olur. Sualın xarakteri ən çox şəraitdən, istintaqın gedişindən, şahidin verdiyi ifadələrdən asılı ola bilər.

Əksər hallarda zərərçəkmiş şəxsin dindirilməsi münaqişəsiz şəraitdə keçir. Bunun əsas səbəbi zərərçəkmiş şəxs ona istər maddi, istərsə də mənəvi zərər vurmuş şəxsin istintaq orqanları tərəfindən tapılması və onun məsuliyyətə cəlb edilməsində maraqlı olmasıdır. Zərərçəkmiş şəxslə dindirmə zamanı müstəntiqin qarşısında həmin şəxsin psixoloji gərginliyinin, qorxusunun, narahatlığının aradan qaldırılması və istintaqa daha vacib olan hallara fikrini yönəltmək durur. Zərərçəkmiş şəxsin səhv ifadələrinə çox vaxt onun rastlaşdığı təhlükə təsir göstərir. Məsələn, bu onun cinayəti törətmiş şəxsin xarakterik görünüşünü izah edərkən əks oluna bilər. Yalan ifadə verməyin səbəbi zərəçəkmiş şəxsin qorxaq hərəkətlərinə görə utanması, öz hərəkətlərini doğrultmaq istəyi ola bilər. Hər halda dindirmənin əvvəlində müstəntiq məqsədinin həqiqəti araşdırmaq olduğunu, tez və ya gec həqiqəti öyrənəcəyini bildirməlidir.

Dindirmə zamanı münaqişəli şərait şahidin yalan ifadə verməsi və ya ifadədən boyun qaçırması ilə yaranır. Bu cür münaqişəli şəraitdə dindirmənin effektliliyi müvafiq optimal üsulların seçilməsi ilə yalanın müəyyən edilməsidir. Belə halda müstəntiq professional səviyyədə şəxsin fəaliyyətinin psixologiyasını, onun yalan ifadə verdiyini, vaxtında şahidin yalan danışdığını aşkarlamaq və onu dəf etmək kimi halları müəyyənləşdirməyi bacarmalıdır. Dindirilən tərəfindən yalan ifadənin motivi, əksər hallarda cinayətin törədilməsində onun iştirakının olmasının aşkara çıxarılması qorxusu, fərdi mühakimə ilə, qrup tərəfindən ona münasibətin dəyişməsi və ya qrupdan çıxarılması qorxusu, cinayətin iştirakçıları tərəfindən intiqam qorxusu, edilmiş əmələ görə utanma, intim həyatı gizlətmək arzusu, müstəntiqə antipatiya və s. müşahidə olunur.

Dindirmə zamanı xarakterсə narahat olan dindirilən şəxslər daha tez xarici aləmin təsirinə məruz qalır və psixoloji təzyiqli situasiyada baş verənləri çətinliklə dərk edir. Onlar daha tez öz fikirlərindən dönür, güzəştə gedirlər. Belə şəxslərin digər şəxslər tərəfindən öyrədilməsi halları dindirmə zamanı tez-tez müşahidə olunur. Bu cür motivin səbəbi əksər hallarda qorxu, paxıllıq, intiqam halları ilə bağlı olur.

Bəzən müstəntiq şahid ifadə verdikdə ona diqqət yetirməli, niyə belə dedi, niyə belə etdi, niyə yalan danışır kimi motivləri izləməlidir ki, yalanı aşkara çıxartsın. Verilmiş sualların yeni tərtibi əsasında şahidlə təkrar dindirmə aparılır. Bu şahidin yaddaşının zəifliyi ilə əlaqədar verilir. Belə ki, birinci dəfə yalan ifadə verən şahid bir müddət keçəndən sonra verdiyi ifadəni müəyyən dərəcədə unudur. İkinci dəfə ifadə verdikdə müəyyən səhvlər buraxır ki, bunlar da verilmiş informasiyalarla ziddiyyət yaradır. Artıq məlumdur ki, adi, kiçik yalan böyük şübhələr yarada bilər. Şahidin etiraf edib-etməməsindən asılı olaraq yalan ortaya çıxır. Şahid yalanı özü etiraf edə bilər ya da yalanın səbəbini gizlətmək üçün daha keyfiyyətli yalan deyərək özünə haqq qazaqdıraraq, yalan ifadələrini davam etdirə bilər. Bu baxımdan çətin ki, onunla razılaşmaq olar ki, həqiqəti müəyyənləşdirmək üçün yalanı aşkara çıxartmaqdansa, onu xəbərdarlıq etmək (şahidi) daha müvafiq olar. Praktika heç də hər dəfə bunu təsdiqləmir. Müstəntiqin düzgün mövqe tutması dindirilən şəxslərlə yarana biləcək münaqişələrin qarşısını ala bilər. Müstəntiq dindirilən şəxslərlə onların vətəndaşlıq borcları, həyat mövqeləri və digər mövzular barəsində söhbət açmaqla bu şəxslərdə istintaqın gedişinə, ədalətin bərqərar olmasına maraq yarada bilər.

Müstəntiq bunu müəyyən üsulların köməyi ilə həyata keçirə bilər. Haqqında araşdırma aparılan şəxsin fəaliyyəti, onu yaxşı tanıyan insanlarla söhbət, xarakteristikalarının ümumiləşdirilməsi, alınmış informasiyaların nəticələrinin təhlili və müqayisəsi gərəklidir. Dindirməyə çağrılan şəxsin fərdi-psixoloji xüsusiyyətləri arasında ən böyük marağı onun şəxsiyyətinin strukturunun formalaşması, onun istiqamətləndirilməsi, dünya görüşü dəyərləri, ehtiyac və motivasiya sferası təşkil edir. Bu qeyd olunanlar şəxsiyyətin xarakterik xüsusiyyətlərinə çevrilir, onun özünüqiymətləndirmədə, digər insanlarla münasibətdə, şəxsi maddi və mənəvi ehtiyacların ödənilməsində öz əksini geniş şəkildə tapır və xarakterin formalaşmasında böyük rol oynayır. Tez-tez praktikada elə situasiyalar olur ki, müstəntiqin şəxs barəsində məlumatı olmur. İnformasiya azlığı ilə əlaqədar müstəntiq şəxsin barəsində fərdi-psixoloji xüsusiyyətləri ilk münasibətdən öyrənməyə başlayır. Bu bütün istintaq fəaliyyətində davam edir. Ona görə də dindirilən şəxslər haqqında məlumat toplayarkən onları sıralamalar ilə məhdudaşdırmaq olmaz. Dindirilən şəxs haqqında məlumat toplamaq, onunla ünsiyyətdə etibar yaratmaqla qarşıya çıxa biləcək münaqişələrin aradan qaldırılması mümkünləşir. Bəzən elə hallar olur ki, müstəntiqin dindirməyə çağrılan şəxs haqqında məlumat

toplamağa vaxtı olmur. Ona görə də müstəntiq üçün aydın olmalıdır кi, dindirilən şəxs haqqında məlumat toplamaq istintaqın ilкin mərhələsindən başlayır və bütün istintaq boyunca davam edir. Bu zaman dindirilən şəxslə söhbətin onun hərəкətlərinə diqqət yetirməyin mühüm əhəmiyyəti vardır. Bu üsullardan istifadə edərкən prosedurun taкtiкi psixoloji mühitinə, sübutların öz dəyərini itirməməsinə xüsusi nəzarət edilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. Bakı, 2005.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı, 2005.
3. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Baкı, 2002.
4. Əliyev B.H. Məhкəmə psixoloji eкspertizası. Baкı, BDU, 1994.
5. Əliyev. B.H. Cinayət və mülкi prosesdə məhкəmə-psixoloji eкspertizası problemləri. Baкı, 1996.
6. İstintaq taкtiкası. Baкı, Maarif, 1991.
7. Алиев Б.Г. Психологические методы изучения личности преступника. Баку, 1997.
8. Алиев Б.Г. Психологические вопросы изучения преступления. Баку, Ренессанс, 1999.
9. Васильев В.Л. Юридическая психология. Спб., Питер, 2000.
10. Силнов М.А. Вопросы прокурорского надзора за законностью производства следственных действий. М., 1999.


## НЕКОТОРЫЕ ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ДОПРОСА


**Б.Г.АЛИЕВ, Я.А.ВЕЛИЕВА**



### РЕЗЮМЕ

В представленной статье затронуты некоторые психологические вопросы допроса. Процесс допроса исследуется в статье как с правовой, так и с социально-психологической стороны. Помимо этого, роль знаний о психической жизни человека, его восприятии и ощущении, фантазии и мышлении, чувств и воли, а также интересах и наклонностях, темпераменте и характере в процессе допроса изложена обстоятельно. В статье нашло свое отражение изучение средств использования методов психического воздействия во время допроса. Главная задача допроса является установление лиц, совершивших конкретные уголовные деяния, условия и средства совершения преступления, уровня активности и степени виновности соучастников в совершении преступления.